2022 .- 6 sentyabr.- S.8.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



# Dünya elmində inqilab edən dahi azərbaycanlı

## Lütfi Zadənin anım günüdür

*Aysu ABBASOVA*

"Azərbaycan mənim doğma Vətənimdir. Mən həmişə Azərbaycanın uğurlu gələcəyi barədə düşünürəm və bu istiqamətdə atılan hər bir addım məni sevindirəcək" - bu cümlələrin sahibi dünya elmində inqilab edən dahi azərbaycanlı Lütfi Zadədir. Bəşəriyyətin gələcək inkişafının informasiya kommunikasiya texnologiyaları sahəsi ilə bağlılığına əmin olan Lütfi Zadə Azərbaycanda elm və texnologiyaların inkişafı, gənc mühəndislərin və tədqiqatçıların formalaşması üçün müasir tədqiqat mərkəzlərinin yaradılmasını arzu edirdi. O, öz müsahibələrində ölkəmizdə elm və texnologiyaların inkişafı üçün böyük potensialın olduğunu bildirir, elmlə məşğul olan insanlara qayğı göstərilməli olduğunu deyirdi.

Lütfi Əliəskər Zadə kompüter elmində qeyri-səlis məntiq nəzəriyyəsinin əsasını qoyan ABŞ vətəndaşı riyaziyyatçı və alimdir. 1921-ci il fevralın 4-də Bakıda, Sovet Azərbaycanında anadan olub. Lütfi Zadə Azərbaycan gəncləri üçün ən gözəl rol modellərin önündədir. Çünki bir millətin inkişafı elmlə, biliklə olur, xurafatla deyil.

Lütfi Zadə elm aləmində ən çox qeyri-səlis riyaziyyatın, qeyri-səlis anlayışların, qeyri-səlis məfhumlardan ibarət olmasını irəli sürməsi ilə tanınıb. Onun atası Rəhim Ələsgərzadə etnik azərbaycanlıdır və Ərdəbildə doğulub, anası Fanya Koreman etnik rus-yəhudidir, Odessada doğulub və İran vətəndaşı olub. Lütfi Zadə üçüncü sinfədək təhsilini Bakıda alıb, sonradan o, ailəsi ilə birgə Tehrana köçüb. 1942-ci ildə Tehran Universitetindən məzun olub və bir il sonra ABŞ-a gedib. 1944-cü ildə MİT-ə daxil olub və adını Lütfi Əsgər Zadə kimi dəyişib. 1946-cı ildə isə o, Columbia Universitetinə doktorluq dərəcəsi üzrə tələbə kimi daxil olub. Bu vaxt onun ailəsi artıq New York şəhərinə yerləşmişdi.

O, 1949-cu ildə həmin universitetdə elektrik mühəndisliyi üzrə doktorluq dərəcəsi alır və bir il sonra professor yardımçısı kimi çalışır. Zadə Columbia Universitetində 10 il dərs deyib. 1957-ci ildə professor kimi fəaliyyətə başlayıb, 1959-cu ildən ömrünün sonunadək California-dakı Berkeley Universitetində dərs deyib. Onu məşhurlaşdıran qeyri-səlis məntiq nəzəriyyəsini isə 1973-cü ildə irəli sürüb. Akademik dairələrdə professor Lütfi Zadənin işi mübahisəli sayılır və hətta rişxəndə də tuş gəlirdi.

Bu, qismən onun işinin başqa riyazi sahələri sorğu-suala çəkməsi və yeni nəzəriyyənin terminologiyası ilə bağlı idi. Google Scholar saytına əsasən Zadənin 1965-ci ildə nəşr etdiyi "qeyri-səlis çoxluq" nəzəriyyəsi 90 mindən artıq elmi əsərdə iqtibas olunub və bu riyazi konsepsiyası elektron cihazlardan tutmuş, hava proqnozunadək müxtəlif sahələrdə istifadə olunub. New Mexico Universitetindən professor Timothy Ross deyir ki, nəzəriyyə hüdudları qeyri-müəyyən və dəqiq olmayan informasiya kütləsini araşdırırdı. "Bu, nəzəriyyə və reallıq arasında bir körpü idi", son illər ərzində Lütfi Zadə ilə yan-yana işləyən Almaniyanın Jena Universitetinin professoru Rudolf Seising deyib.

Azərbaycanda doğulub, xaricdə yaşayan Lütfi Zadə vətənini tərk etdikdən sonra Azərbaycana cəmi iki dəfə səfər etmişdi. İlk olaraq Lütfi Zadə Bakıya 1965-ci ildə birgünlük səfər etmiş, ikinci dəfə isə 2008-ci ilin noyabrında "BakuTel" Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmək üçün gəlmişdi. Üçüncü dəfə 2017-ci ildə o, əbədi olaraq vətəninə dönür. Alim 6 sentyabr 2017-ci ildə dünyasını dəyişir və 29 sentyabrda Birinci Fəxri Xiyabanda dəfn edilir. Ölümündən bir ay əvvəl Lütfi Zadə müsəlman adətlərinə görə vətənində dəfn olunmasını xahiş edən bir məktubla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət etmişdi. Onun bu istəyi yerinə yetirilmişdi.

Lütfi Zadə elə böyük bir şəxsiyyətdir ki, Azərbaycanda torpağa qoyulanda da Vətəninə baş ucalığı gətirib. Elm və texnologiyaların inkişafına misilsiz töhfələr vermiş məşhur alim Lütfi Zadə həmişə azərbaycanlı olması ilə qürur duyub, onun ürəyi daim doğma Vətəni ilə döyünüb. O yazırdı: "...Vətənimin oğlu kimi qəbul edilməyim həyatımın məğzi və şərəfimdir. Bakı və xalqım qəlbimin qaynar guşəsində özünə əbədi yer tutub". Nə qədər iddialı səslənsə də, Azərbaycan Lütfi Zadə kimi bir övladının olması ilə fəxr edir. Lütfi Zadə də öz növbəsində Vətənini, xalqını çox sevirdi. "Heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm, əksinə, bununla qürur duymuşam" deməklə bir daha millətinə nə qədər bağlı olduğunu nümayiş etdirib.